**Azərbaycan Respublikası Hesablama Palatasının**
**2024-cü il üçün xərclər smetası haqqında**

2024-cü ildə Azərbaycan Respublikası Hesablama Palatasının fəaliyyətinin səmərəliliyini təmin etmək məqsədilə “Hesablama Palatası haqqında” Azərbaycan Respublikası Qanununun 33-cü maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisi qərara alır**:**

1. Azərbaycan Respublikası Hesablama Palatasının (Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə idarəsi daxil olmaqla) 2024-cü il üçün xərclər smetası **11 424 588** (on bir milyon dörd yüz iyirmi dörd min beş yüz səksən səkkiz) manat məbləğində təsdiq edilsin.

2. Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü il üçün xərclər smetası aşağıdakı qaydada bölüşdürülsün:

| | | |
|---|---|---|
| **2.1** | **ƏMƏYİN ÖDƏNİŞİ** | – **10 361 232 (ON MİLYON ÜÇ YÜZ ALTMIŞ BİR MİN İKİ YÜZ OTUZ İKİ) MANAT** |
| 2.1.1. | Hesablama Palatası işçilərinin əməkhaqqı | – 7 540 812 (yeddi milyon beş yüz qırx min səkkiz yüz on iki) manat |
| 2.1.2. | Ştatdankənar işçilərin əməkhaqqı | – 54 670 (əlli dörd min altı yüz yetmiş) manat |
| 2.1.3. | Əməyin ödənişi ilə bağlı digər pul ödənişləri | – 707 865 (yeddi yüz yeddi min səkkiz yüz altmış beş) manat |
| 2.1.4. | Məcburi dövlət sosial sığorta haqları | – 1 826 736 (bir milyon səkkiz yüz iyirmi altı min yeddi yüz otuz altı) manat |
| 2.1.5. | İcbari dövlət sığortası | – 26 999 (iyirmi altı min doqquz yüz doxsan doqquz) manat |
| 2.1.6 | İcbari tibbi sığorta | – 166 067 (bir yüz altmış altı min altmış yeddi) manat |
| 2.1.7. | İşsizlikdən sığorta | – 38 083 (otuz səkkiz min səksən üç) manat |

| | | |
|---|---|---|
| **2.2** | **MALLARIN (İŞLƏRİN VƏ XİDMƏTLƏRİN) SATINALINMASI** | – **833 678 (SƏKKİZ YÜZ OTUZ ÜÇ MİN ALTI YÜZ YETMİŞ SƏKKİZ) MANAT** |
| 2.2.1. | Dəftərxana və təsərrüfat xərcləri | – 45 150 (qırx beş min bir yüz əlli) manat |
| 2.2.2. | Mətbəə məhsulları üzrə xərclər | – 24 467 (iyirmi dörd min dörd yüz altmış yeddi) manat |
| 2.2.3. | Yanacaq və sürtkü materiallarının alınması | – 105 570 (bir yüz beş min beş yüz yetmiş) manat |
| 2.2.4. | Dərman, sarğı ləvazimatlarının və materiallarının alınması | – 2 600 (iki min altı yüz) manat |
| 2.2.5. | Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması | – 4 071 (dörd min yetmiş bir) manat |
| 2.2.6. | Digər malların alınması | – 9 954 (doqquz min doqquz yüz əlli dörd) manat |
| 2.2.7. | Tikili və avadanlıqların cari təmir xərcləri | – 54 054 (əlli dörd min əlli dörd) manat |
| 2.2.8. | Nəqliyyat vasitələrinin cari təmir xərcləri | – 33 201 (otuz üç min iki yüz bir) manat |
| 2.2.9. | Elektrik enerjisi haqqının ödənilməsi | – 27 667 (iyirmi yeddi min altı yüz altmış yeddi) manat |
| 2.2.10. | Qaz haqqının ödənilməsi | – 18 000 (on səkkiz min) manat |
| 2.2.11. | Su haqqının ödənilməsi | – 2 600 (iki min altı yüz) manat |
| 2.2.12. | Kanalizasiya xidmətləri haqqının ödənilməsi | – 2 600 (iki min altı yüz) manat |
| 2.2.13. | İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi | – 21 950 (iyirmi bir min doqquz yüz əlli) manat |
| 2.2.14. | Digər kommunal xidmətlərin haqqının ödənilməsi | – 6 606 (altı min altı yüz altı) manat |
| 2.2.15. | Ölkədaxili telefon danışıq haqlarının ödənilməsi | – 23 798 (iyirmi üç min yeddi yüz doxsan səkkiz) manat |
| 2.2.16. | Beynəlxalq telefon danışıqları haqlarının ödənilməsi | – 500 (beş yüz) manat |
| 2.2.17. | Poçt xidmətləri haqqının ödənilməsi | – 2 300 (iki min üç yüz) manat |
| 2.2.18. | İnternet xidməti haqqının ödənilməsi | – 34 245 (otuz dörd min iki yüz qırx beş) manat |

| | | |
|---|---|---|
| 2.2.19. | Mühafizə xərcləri | – 90 838 (doxsan min səkkiz yüz otuz səkkiz) manat |
| 2.2.20. | Əsas fondlara xidmət haqqı xərcləri | – 10 860 (on min səkkiz yüz altmış) manat |
| 2.2.21. | Sanitariya-gigiyena və digər xidmət haqqı xərcləri | – 2 500 (iki min beş yüz) manat |
| 2.2.22. | Proqram təminatlarına və məlumat bazalarına xidmət haqlarının ödənilməsi | – 20 290 (iyirmi min iki yüz doxsan) manat |
| 2.2.23. | Ölkədaxili ezamiyyətlər | – 85 720 (səksən beş min yeddi yüz iyirmi) manat |
| 2.2.24. | Xarici ezamiyyətlər | – 90 000 (doxsan min) manat |
| 2.2.25 | Nəqliyyat vasitələri, istehsal təyinatlı maşın, avadanlıq və qurğular üzrə xidmət haqlarının ödənilməsi | – 3 065 (üç min altmış beş) manat |
| 2.2.26. | Atributların, mükafatlandırma nişanlarının hazırlanması, təltif və mükafatlandırma ilə bağlı xərclər | – 4 950 (dörd min doqquz yüz əlli) manat |
| 2.2.27. | İstehlak yönlü müxtəlif xidmətlər | – 21 125 (iyirmi bir min bir yüz iyirmi beş) manat |
| 2.2.28. | Bank xidmətləri haqqının ödənilməsi | – 30 387 (otuz min üç yüz səksən yeddi) manat |
| 2.2.29. | Dövlət qulluqçularının əlavə təhsil xərcləri | – 4 880 (dörd min səkkiz yüz səksən) manat |
| 2.2.30. | Sair xərclər | – 34 730 (otuz dörd min yeddi yüz otuz) manat |
| 2.2.31. | Xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi | – 15 000 (on beş min) manat |
| **2.3** | **SOSİAL ÖDƏNİŞLƏR** | – **97 300 (DOXSAN YEDDİ MİN ÜÇ YÜZ ) MANAT** |
| 2.3.1. | Əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinət | – 61 300 (altmış bir min üç yüz) manat |
| 2.3.2. | Dövlət qulluqçularına ödənişlər | – 36 000 (otuz altı min) manat |

| | | |
|---|---|---|
| **2.4** | **QEYRİ-MALİYYƏ AKTİVLƏRİ** | – **132 378 (BİR YÜZ OTUZ İKİ MİN ÜÇ YÜZ YETMİŞ SƏKKİZ) MANAT** |
| 2.4.1. | Maşın və avadanlıqlar | – 56 310 (əlli altı min üç yüz on) manat |
| 2.4.2. | Sair torpaq, tikili və avadanlıqlar | – 3 540 (üç min beş yüz qırx) manat |
| 2.4.3. | Nəqliyyat vasitələrinin əsaslı təmiri | – 22 740 (iyirmi iki min yeddi yüz qırx) manat |
| 2.4.4. | Qeyri-maddi aktivlər | – 49 788 (qırx doqquz min yeddi yüz səksən səkkiz) manat |

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

**Bakı şəhəri, 5 dekabr 2023-cü il**
**№ 1041-VIQR**